Scientific News of Azerbaijan State
Academy of Physical Education and Sport

SPORT SCİENCE JOURNAL
Vol 3 Issue 2, June 2018

*İcmal*

# Peşəkar futbolçuların texniki hazırlığı qarşısında duran müasir tələblər

*Babayev R.Q., Şükürov M.Q.*[1]

[1]*Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası*

**Nəşr tarixi**
Qəbul edilib 1 mart 2018
Dərc olunub: 5 iyun 2018
© 2018 ADBTİA. Bütün hüquqlar qorunur.

**Açar sözlər:** müasir futbol, topa yiyələnmə texnikası, hərəkət texnikası, müdafiəçilər, orta xətt oyunçuları, hücumçular.

Müasir futbol futbolçuların universal hazırlığına əsaslanır, burada hər bir futbolçu öz üzərinə düşən vəzifəni düzgün anlamalı, ona məsuliyyətlə yanaşmalı,həmçinin oyunun bütün texniki fəndlərini mənimsəməli, texniki fəndləri yüksək səviyyədə icra etməyə çalışmalı, hücum və müdafiə zamanı səriştəli oyun göstərməyi bacarmalıdırlar.

Müasir futbol futbolçuların hərəkət fəliyyətlərinin intensivləşməsi və onun hərəkət diapazonunun genişlənməsilə xarakterizə olunur.İllər keçdikcə futbol yarışlarında gərginliyin artması nəticəsində futbolçulara müxtəlif xarici və daxili mühit faktorlarının təsiri artır.

Bu gün dünyada futbolununsürəti və dinamikasıolduqca yüksəlir, futbolçuların texniki hazırlığına verilən tələblər də dayanmadan artır. Bu baxımdan onu qeyd etmək istəyirik ki, dünya futbolu ilə ayaqlaşmaq üçün yetişən gənc futbolçularında bu tələblərə tam uyğunlaşması günümüzün vacib tələblərindəndir.

Futbolda müdafiəçilərin üzərinə böyük yük düşür. Müdafiəçilər mərkəz və kənar müdafiəçilərə bölünürlər. Müasir futbolda mərkəz müdafiəçilər yüksək fiziki, texniki və taktiki hazırlığa, həmçinin uca boya və yüksəkliyə tullanma bacarığına malik olmalıdırlar(1). Bu bacarıq onlara rəqiblə havada uğurlu mübarizə aparmağa imkan verir. Ön mərkəz müdafiəçisi öz oyununu zonadakı hərəkətlərilə uyğunlaşdırmağı bacarmalıdır. Müdafiə zamanı ön mərkəz müdafiəçi rəqibin hücumçusunun hərəkətlərini nəzarətdə saxlayır və lazım olduqda arxa mərkəz müdafiəçilə yerini dəyişir, müdafiə vasitəsilə komanda yoldaşlarını himayə edir. Hücum zamanı isə o hücuma qoşulur və yaxud komanda yoldaşlarına ötürmələr verərək onları əlverişli mövqeyə çıxarır. Arxa mərkəz müdafiəçisiməşqçinin qoyduğu taktiki vəziyyətə düzgün qiymət verməli, rəqibin taktiki hərəkətlərini anlamalı, topu almaq, komanda yoldaşlarını himayə etmək üçün müdafiə zamanı düzgün mövqe tutmalıdır. Arxa mərkəz müdafiəçisinin əsas işi müdafiəçilərin hərəkətlərinin uzlaşdırılması, zonada oyunun aparılması, qapıçı və komanda yoldaşları ilə qarşılıqlı hərəkətlərin qurulmasından ibarət olmalıdır. Hücuma keçdikdə isə arxa mərkəz müdafiəçisi qapıçıdan, komanda yoldaşlarından topu alması və sonradan müxtəlif ötürmələr vasitəsilə hücumu inkişaf etdirməsi önəmlidir (2).

Müasir futbolda kənar müdafiəçilərin rolu olduqca böyükdür. Kənar müdafiəçilər əvvələr əsasən rəqibin hücumunu pozan oyunçular kimi fəaliyyət göstərirdilər.Lakin hal-hazırda kənar



© The Author(s) 2018. Published by Science News of Academy of Physical Education and Sport. This is an Open Access article distributed under the terms of the Creative Commons Attribution Non-Commercial License (http://creativecommons.org/ licenses/by-nc/4.0/), which permits non-commercial re-use, distribution, and reproduction in any medium, provided the original work is properly cited.

müdafiəçilərin üzərinə düşən vəzifələri dahada genişlənmiş və onlar müdafiə ilə bərabər öz komandalarının hücumlarında da daim fəal iştirak edirlər. Buna misal olaraq avropanın güclü klublarındanBarselona, R. Madrid, Mançester U, Mançester Siti, Çelsi, Yuventus və digərkomandaların heyyətində oynayan kənar müdafiəçiləri göstərmək olar. Bu komandaların sağ və sol kənar müdafiəçiləri yüksək fiziki və texniki hazırlığa malikdirlər, eyni zamanda rəqibə güclü müqavimət göstərir, həm müdafiənin həmdə hücumun təşkilində yaxından iştirak edirlər.

Müdafiə zamanı kənar müdafiəçilərin qarşısında aşağıdakı əsas tələblər qoyulur:

1) Zonada düzgün hərəkətlər.
2) Rəqib qapıya yaxınlaşdıqda daha sıx müdafiə olunmaq.
3) Komanda yoldaşının və lazım gəldikdə qapıçının himayəsini təşkil etmək.
4) Rəqibin qapıya zərbələrinə maneçilik yaratmaq.
5) Rəqibin ötürmələrinə maneçilik törətmək.

Hücum zamanı kənar müdafiəçilərin qarşısında aşağıdakı tələblər qoyulur:

1) Rəqibdən alınmış topu vaxtında və dəqiq komanda yoldaşına ötürmək.
2) Rəqibin gözləmədiyi anda hücuma qoşulmaq.

Müasir futbolda komandanın əldə edəcəyi müvəffəqiyyət əsasən orta xətt oyunçularının oyunundan olduqca asılıdır. Bu futbolçular yüksək funksional idman hazırlığına malik olmalı, bütün oyun ərzində (hücum zamanı, həmdə müdafiə zamanı) aktiv olmalı, oyunun tempini artırmağı və nəzarətdə saxlamağı bacarmalıdırlar.

Hücum zamanı orta xətt oyunçularının qarşısında aşağıdakı tələblər qoyulur:

1) Müdafiədən hücuma keçmək və hücumun gücləndirilməsini təşkil etmək.
2) Meydanın mərkəzini nəzarətdə saxlamaq və təşəbbüsün komandanın əlində olmasını, yəni uzun müddət topun komanda yoldaşlarının nəzarətində olmasını təmin etmək.
3) Hücumların müvəffəqiyyətlə başa çatdırılmasında iştirak etmək.
4) Hücuçumçuların fərqlənməsi üçün onlara əlverişili qol vəziyyətləri yaratmaq.
5) Hücumların effektivliyini artırmaq üçün topun cinahdan ötürülməsi və boşalmış zonaya sürətli açılma ilə rəqibin müdafiəsini təzyiq altında saxlamaq.

Müdafiə zamanı orta xətt oyunçularının qarşısında duran əsas tələblər:

1) Rəqibin cavab hücumunun qarşısının alınması üçün meydançada düzgün mövqe tutmaq.
2) Tapşırılmış rəqib oyunçusunun oyununa nəzarəti həyata keçirmək.
3) Topun qapıya vurulmasına maneçilik yaratmaq.
4) Topun ötürülməsinə maneçilik törətmək.
5) Komanda yoldaşlarının himayəsini təmin etmək və onlarla qarşılıqlı olaraq seçilən taktikanı həyata keçirmək.

Komandanın orta xəttinə orta xətt oyunçusu və hücuma meyilli orta xətt oyunçusu daxildir. Hücuma meyilli orta xətt oyunçusu əsasən hücumları təşkil edərək hücumçuları topla təmin edir və hücumların müvəffəqiyyətlə başa çatdırılmasında yaxından iştirak edir. Hücumameyilli orta xətt oyunçusunun əsas vəzifəsi topu qəbul edən kimi hücumları təşkil etmək,hücumçulara dəqiq ötürmə vermək, lazım gəldikdə topu dəqiq qapıya vurmağı bacarmaq və hücumları müvəffəqiyyətlə tamamlamaqan ibarətdir.

Müasir futbolda komandanın əldə edəcəyi uğur hücumçuların oyunundan da xeyli dərəcədə asılıdır. Hücumçular kənar və mərkəz hücumçulara bölünürlər. Kənar hücumçular



© The Author(s) 2018. Published by Science News of Academy of Physical Education and Sport. This is an Open Access article distributed under the terms of the Creative Commons Attribution Non-Commercial License (http://creativecommons.org/ licenses/by-nc/4.0/), which permits non-commercial re-use, distribution, and reproduction in any medium, provided the original work is properly cited.

güclü və yüksək sürətə malik olmalıdırlar, oyunun tempini və ritmini tez dəyişməyi bacarmalıdırlar. Onlar həm yerdə, həmdə havada effektiv mübarizə aparmalı, yüksək sürətlə müxtəlif texniki fəndləri (aldadıcı hərəkətlər, fintlər və s) icra etməyi bacarmalıdırlar.

Hücum zamanı kənar hücumçuların qarşısında duran əsas tələblər:

1) Orta və arxa xətt oyunçularından ötürmə almaq üçün mövqenidüzgün seçmək.

2) Hücum zamanı cinahdan sürətli manevr etmək və sonradan topu rəqibin cərimə meydançasına ötürmək.

3) Hücuma qoşulmuş müdafiəçilərlə, orta xətt oyunçuları ilə və digər komanda yoldaşları ilə qarşılıqlı fəaliyyət göstərmək.

4) Hücumların müvəffəqiyyətlə başa çatdırılmasında iştirak etmək.

5) Hücumlar zamanı lazım gəldikdə driblinqlər edərək rəqibin cərimə meydançasına daxil olub rəqib müdafiəçiləri təzyiq altında saxlamaq.

Mərkəz hücumçuların əsas vəzifəsi isə hücumun başında durmaq, hücumların effektivliyini artıraraq onların müvəffəqiyyətlə başa çatdırılmasında iştirak etməkdən ibarətdir. Bu oyunçular yüksək fiziki və texniki hazırlığa malik olmalı, yüksək sürətilə seçilməli, rəqib komandanın müdafiəçilərilə təkmübarizlik aparmalı, hava ötürmələri zamanı rəqib müdafiəçiləri qabaqlayaraq topa qapı istiqamətində düzgün zərbə vurmağı bacarmalıdırlar. Apardığımız müşahidələr nəticəsində belə qənaətə gəlmək olur ki, mərkəz hücumçularının aktivliyi rəqib komandanın müdafiəçilərinin oyununa mane olur və müdafiəçilər hücuma qoşulmaqa risk etmirlər.

Günümüzdə peşəkar futbolçuların yüksək texniki hazırlıq səviyyəsinə olan tələbat dayanmadan artır, məhz buna görədəuşaq yaşlarından texniki hazırlığı (top saxlamaları, top aparmaları, top ötürmələri, top atmaları, topa zərbələri, aldadıcı hərəkətləri, driblinqləri) inkişaf etdirərək və formalaşdıraraq təkmilləşdirmək daha məqsədəuyğundur.

## Ədəbiyyatlar:

1. Решитко В.Л. Техническая подготовка юных футболистов: Методическое рекомендации-М.,1994

2. Селуянов В.Н., Шестаков М.П., Диас С., Ферейра М. Футбол.Проблемы технической подготовки. М: ТВТ Дивизион, 2014—104 с.



© The Author(s) 2018. Published by Science News of Academy of Physical Education and Sport. This is an Open Access article distributed under the terms of the Creative Commons Attribution Non-Commercial License (http://creativecommons.org/licenses/by-nc/4.0/), which permits non-commercial re-use, distribution, and reproduction in any medium, provided the original work is properly cited.